**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№371/1** **23 dekabr 2024-cü il**

**Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.1-ci "Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri" bəndinin icrası ilə əlaqədar görülmüş işlər barədə hesabata dair**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində proqram xarakterli tövsiyələrini rəhbər tutaraq, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.1-ci "Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri" bəndinin icrası ilə əlaqədar görülmüş işlər barədə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.1-ci "Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri" bəndinin icrası ilə əlaqədar hazırlanmış hesabat nəzərə alınsın (əlavə olunur).
2. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**